*Akademik Tarih ve Düşünce Dergisi*    *Academic Journal of History and Idea*

***Araştırma Makalesi | Research Article***
***Geliş tarihi |Received:08.09.2025***
***Kabul tarihi |Accepted:20.10.2025***
***Yayın tarihi |Published:25.10.2025***

**Aytəkin Zeynalova**

***https://orcid.org/0000-0002-9737-1072***
*Associate Professor, Doctor of Philosophy in Political Science, Baku State University, Department of International Journalism and Information Policy, Azerbaijan, phd.aytekinzeynalova@gmail.com*

***Atıf Künyesi | Citation Info***

Zeynalova, A. (2025). Azərbaycan və Türkiyə arasında geostrateji müttəfiqlik: İğdır–Naxçıvan qaz kəməri layihəsinin regional əhəmiyyəti və təsirləri. *Akademik Tarih ve Düşünce Dergisi, 12* (5), 1131-1142.

# Azərbaycan və Türkiyə arasında geostrateji müttəfiqlik: İğdır–Naxçıvan qaz kəməri layihəsinin regional əhəmiyyəti və təsirləri

***Xülasə***

*Bu məqalə Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında enerji əməkdaşlığının mühüm komponenti olan İğdır–Naxçıvan qaz kəmərinin regional geostrateji əhəmiyyətini araşdırır. Tədqiqat layihənin Naxçıvanın enerji təhlükəsizliyinin təmin edilməsi, təchizatın şaxələndirilməsi və blokada nəticəsində yaranmış sosial-iqtisadi çətinliklərin azaldılması baxımından rolunu təhlil edir. Metodoloji çərçivə tarixi-analitik və müqayisəli yanaşmalar əsasında qurulmuş, layihənin formalaşma mərhələləri, müasir geosiyasi şəraitdə funksionallığı və Azərbaycan–Türkiyə strateji müttəfiqliyinə təsiri qiymətləndirilmişdir. Analiz göstərir ki, İğdır–Naxçıvan qaz kəməri təkcə enerji infrastrukturu layihəsi deyil, həm də Cənubi Qafqazda yeni geoiqtisadi əlaqə xəttinin yaranmasına, regional inteqrasiya proseslərinin sürətlənməsinə və Türkiyə–Azərbaycan əməkdaşlığının institusional güclənməsinə xidmət edir. Layihə həmçinin türk dünyasının enerji xəritəsinin genişlənməsinə və regionda balanslaşdırıcı gücün formalaşmasına töhfə verir.*

***Açar sözlər:*** *İğdır, Naxçıvan, Qaz Boru Kəməri, Enerji Təhlükəsizliyi, Regional İnteqrasiya*

# Geostrategic Alliance between Azerbaijan and Türkiye: Regional Significance and Implications of the Iğdır–Nakhchivan Gas Pipeline Project

***Abstract***

*This article examines the geostrategic significance of the Iğdır–Nakhchivan gas pipeline, a key component of energy cooperation between the Republic of Azerbaijan and the Republic of Türkiye. The study analyzes the project's role in enhancing Nakhchivan's energy security, diversifying supply routes, and mitigating the socio-economic challenges caused by prolonged blockade conditions. The methodological framework is based on historical-analytical and comparative approaches, assessing the project's development stages, its functionality within the contemporary geopolitical environment, and its impact on the Azerbaijan–Türkiye strategic alliance. The analysis demonstrates that the Iğdır–Nakhchivan gas pipeline is not merely an energy infrastructure initiative but also contributes to the establishment of a new geo-economic connectivity corridor in the South Caucasus, the acceleration of regional integration processes, and the institutional strengthening of Türkiye–Azerbaijan cooperation.*

**Copyright and License Statement**

***All publication and copyright of this article are held by the Journal of Academic History and Ideas / Akademik Tarih ve Düşünce Dergisi. The article is made available by the journal as open access under the terms of the Creative Commons Attribution–NonCommercial 4.0 International License (CC BY-NC 4.0) (https://creativecommons.org/licenses/by-nc-nd/4.0/). Under this license, the article may be used, reproduced, and shared in any medium for non-commercial purposes, provided that proper scholarly attribution is given; however, the original content may not be altered, transformed, or used to create derivative works. The scientific, legal, and ethical responsibility for the content of the works published in the journal rests entirely with the author(s) of the article; the journal's editors and editorial board cannot be held responsible for this content. All requests concerning commercial reuse, translation, or republication of the article must be directed to the journal's editorial board at akademiktarihvedusunce@gmail.com.***

*The project further supports the expansion of the Turkic world's energy network and contributes to the formation of a balancing power configuration in the region.*
***Keywords:*** *Iğdır, Nakhchivan, Gas Pipeline, Energy Security, Regional İntegration*

## Giriş

XXI əsrdə enerji təhlükəsizliyi və enerji diplomatiyası beynəlxalq münasibətlər sistemində strateji rəqabətin əsas istiqamətlərindən birinə çevrilmişdir. Enerji resurslarına malik dövlətlər üçün bu sahədə həyata keçirilən layihələr yalnız iqtisadi mənfəət deyil, həm də milli təhlükəsizlik, regional sabitlik və geosiyasi nüfuz baxımından mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın çoxşaxəli enerji siyasəti və Türkiyə ilə strateji müttəfiqliyi nəticəsində formalaşmış İğdır–Naxçıvan qaz kəməri layihəsi də bu kontekstdə xüsusi əhəmiyyət daşıyır.

Azərbaycan–Türkiyə enerji əməkdaşlığı uzun illərdir ki, regional sabitliyi və iqtisadi inteqrasiyanı gücləndirən əsas sütunlardan biri kimi çıxış edir. Ortaq tarixi və mədəni bağlara, eləcə də siyasi maraqlara söykənən tərəfdaşlıq 1990-cı illərdən etibarən enerji layihələri vasitəsilə daha da möhkəmlənmişdir. Bu baxımdan İğdır–Naxçıvan qaz kəməri Naxçıvan Muxtar Respublikasının enerji təhlükəsizliyinin təmin olunması ilə yanaşı, daha geniş regional məna daşıyır. Layihənin aktuallığı, Ermənistanın uzun illər tətbiq etdiyi sərhəd bağlamaları fonunda Naxçıvanın enerji təminatında dayanıqlığın artırılması, Azərbaycanın vahid enerji məkanına inteqrasiya prosesinin sürətlənməsi və Cənubi Qafqazda yeni nəqliyyat-enerji marşrutlarının formalaşması ilə bağlıdır. Eyni zamanda layihə Azərbaycan və Türkiyənin regional siyasətdə artan rolunu gücləndirərək Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığa əlavə töhfə verir. 2020-ci il post-müharibə geosiyasi reallıqları fonunda layihənin strateji çəkisi daha da artmışdır. İkinci Qarabağ müharibəsindən sonra regionda yaranmış yeni siyasi mühit Bakı–Ankara strateji əməkdaşlığını dərinləşdirmiş, enerji və nəqliyyat xəritəsində yeni imkanlar yaratmışdır. İğdır–Naxçıvan qaz kəməri bu proseslərin məntiqi davamı olaraq həm Naxçıvanın enerji təminatını sabitləşdirir, həm də Azərbaycan–Türkiyə tərəfdaşlığının praktik nəticələrini nümayiş etdirir. Bu məqalə İğdır–Naxçıvan qaz kəməri layihəsinin tarixi, siyasi və iqtisadi əsaslarını, onun Azərbaycan–Türkiyə əlaqələrində oynadığı rolu və Cənubi Qafqazın enerji arxitekturasına təsirini təhlil edir. Tədqiqatda tarixi-analitik metod hadisələrin müəyyən dövrlər üzrə ardıcıllığını, siyasi proseslərin formalaşma mərhələlərini və faktların zaman içində inkişaf trayektoriyasını obyektiv şəkildə araşdırmağa imkan verir. Müqayisəli təhlil metodu isə layihələrin, siyasətlərin və hadisələrin müəyyən meyarlar üzrə müqayisəsinə əsaslanaraq oxşarlıqları, fərqləri və struktur əlaqələri üzə çıxarır. Məlumat toplama mərhələsi rəsmi dövlət sənədləri, statistik göstəricilər, hökumətlərarası razılaşmalar, akademik ədəbiyyat

və mediada yer alan məlumatların elmi əsaslarla seçilməsinə yönəlir. Diskurs analizi ictimai çıxışlar və siyasi bəyanatlarda istifadə olunan terminləri və vurğuları araşdırırkən, məzmun analizi mövzunun informasiya mühitində necə təqdim olunduğunu sistemli şəkildə müəyyənləşdirir. Bu metodların birgə tətbiqi tədqiqat obyektinin elmi baxımdan hərtərəfli qiymətləndirilməsinə şərait yaradır.

**İğdır–Naxçıvan Qaz Kəməri Layihəsinin Tarixi: Regional Siyasi Kontekst və Ümid Körpüsünün Rolu**

Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında enerji əməkdaşlığının tarixi konteksti, iki dövlət arasındakı ümumi strateji tərəfdaşlığın tərkib hissəsi olmaqla yanaşı, Cənubi Qafqaz bölgəsində geosiyasi tarazlığın qorunması baxımından da mühüm əhəmiyyət kəsb etmişdir. Xüsusilə 1990-cı illərin əvvəllərində Ermənistan Respublikasının Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq siyasəti və nəticə etibarilə Naxçıvan Muxtar Respublikasının blokadaya məruz qalması bölgənin enerji və nəqliyyat təhlükəsizliyi məsələlərini daha da aktuallaşdırmış və bu istiqamətdə yeni regional əməkdaşlıq formatlarının formalaşmasına təkan vermişdir (Mustafayev, 2020).

Bu kontekstdə 1992-ci ildə Naxçıvanın Ermənistan tərəfindən faktiki olaraq tam blokadaya alınması və enerji təchizatının kəsilməsi fonunda, Türkiyə ilə Azərbaycan arasında enerji və humanitar əməkdaşlıq çərçivəsində Ümid Körpüsünün inşası və 28 may 1992-ci il tarixində istifadəyə verilməsi Naxçıvanın enerji və ərzaq təminatının davamlılığını təmin edən strateji addımlardan biri olmuşdur (Aydın, 2014). Körpünün açılışında dönəmin Türkiyə Prezidenti Turgut Özal və Azərbaycanın o zamankı rəhbərliyi iştirak etmiş və bu körpü yalnız fiziki infrastruktur deyil, eyni zamanda iki ölkə arasında humanitar və enerji diplomatiyasının simvolu kimi dəyərləndirilmişdir (Aydın, 2014).

1993-cü ildə Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin enerji təhlükəsizliyi siyasəti yeni mərhələyə qədəm qoymuşdur. Heydər Əliyevin liderliyi dövründə Naxçıvanın enerji təminatı və ümumilikdə Azərbaycanın enerji ixrac infrastrukturunun formalaşdırılması ölkənin milli təhlükəsizlik prioritetlərindən birinə çevrilmişdir (Əliyev, 2004). Bu kontekstdə Heydər Əliyevin təşəbbüsü və dönəmin Türkiyə Prezidenti Süleyman Dəmirəlin dəstəyi ilə İğdır–Naxçıvan qaz kəməri layihəsi ilk dəfə 1995-ci ildə rəsmi səviyyədə gündəmə gətirilmişdir (Kurt, 2020). Lakin həmin dövrdə bölgədəki geosiyasi gərginliklər, enerji bazarındakı qeyri-sabitlik və maliyyə məhdudiyyətləri layihənin operativ şəkildə reallaşdırılmasını çətinləşdirmişdir (Kurt, 2020).

Bununla belə, Ümid Körpüsü vasitəsilə Naxçıvanın əsas enerji, ərzaq və digər həyati vacib mallarla təminatı Türkiyə üzərindən həyata keçirilmiş və bu, Naxçıvanın tamamilə enerji kollapsına uğramasının qarşısını almışdır. Bu baxımdan, 1990-cı illərdə atılmış addımlar Azərbaycanın enerji təhlükəsizliyi siyasətinin əsas sütunlarını təşkil etmiş və uzunmüddətli strateji hədəflərin reallaşdırılması üçün zəmin hazırlamışdır (Aydın, 2014).

2000-ci illərin ortalarından etibarən Azərbaycanın enerji sektorunda əldə etdiyi iqtisadi güc və Türkiyə ilə ikitərəfli münasibətlərin daha da dərinləşməsi fonunda İğdır–Naxçıvan qaz kəməri layihəsi yenidən aktuallaşmış və 2020-ci ilin noyabr ayında Azərbaycan və Türkiyə prezidentləri arasında imzalanmış saziş əsasında layihənin praktiki icrasına start verilmişdir.

Bu layihənin reallaşdırılması yalnız Naxçıvanın enerji təminatı kontekstində deyil, həm də regional geosiyasi və enerji təhlükəsizliyi baxımından Azərbaycan və Türkiyə arasında mövcud olan strateji əməkdaşlığın daha yüksək səviyyəyə çatdırılması istiqamətində mühüm əhəmiyyətə malikdir (Kassianova, 2021). Əslində, İğdır–Naxçıvan qaz kəməri layihəsi Heydər Əliyev və Süleyman Dəmirəl dönəmlərində qoyulmuş siyasi iradənin 2020-ci illərdə enerji diplomatiyasına çevrilməsinin parlaq nümunəsi kimi çıxış etməkdədir. Bununla yanaşı, layihə Naxçıvanın Ermənistan tərəfindən həyata keçirilən uzunmüddətli blokadasının yaratdığı iqtisadi və sosial fəsadların azaldılması, regionun izolyasiyadan çıxarılması və Azərbaycanın vahid enerji məkanına inteqrasiyası baxımından da strateji əhəmiyyət daşımaqdadır (Mustafayev, 2020).

**İğdır–Naxçıvan qaz kəməri region üçün strateji əhəmiyyət daşıyır**

05 mart 2025-ci ildə Prezident İlham Əliyevin Türkiyəyə işgüzar səfəri Azərbaycan–Türkiyə münasibətlərinin yeni mərhələyə daxil olduğunu bir daha təsdiq etdi. İki dost və qardaş ölkəni birləşdirən yalnız ortaq tarix, mədəniyyət, din və dil deyil, həm də beynəlxalq səviyyədə güclü strateji əməkdaşlıqdır. Bu əməkdaşlıq konkret geosiyasi və geoiqtisadi layihələrlə möhkəmlənir. Bu baxımdan 2021-ci il 15 iyun tarixində imzalanmış Şuşa Bəyannaməsi xüsusi əhəmiyyət daşıyır. Bəyannaməyə adını verən Şuşa — Azərbaycanın mədəniyyət paytaxtı və 44 günlük Vətən müharibəsinin qələbə rəmzidir. Bu sənəd Şuşanı Azərbaycan–Türkiyə dostluğu və qardaşlığının simvoluna çevirmişdir (Zeynalova, 2022).

2024-cü il 6 iyul tarixində Türk Dövlətləri Təşkilatının Şuşada keçirilmiş qeyri-rəsmi zirvə görüşündə qəbul edilən Qarabağ Bəyannaməsi də bu strateji xəttin davamı olmuşdur. İlk dəfə olaraq TDT liderlərinin qeyri-rəsmi formatda bir araya gəlməsi təşəbbüsü məhz Azərbaycan Prezidenti İlham Əliyevə məxsus olmuşdur. Türk liderlərinin Şuşada bir araya gəlməsi, həmrəyliyin və siyasi birliyin dünyaya nümayişi, "Qarabağ Azərbaycandır!"

reallığının beynəlxalq səviyyədə təsdiqi kimi dəyərləndirilir (Zeynalova, 2024). Bakı və Ankara arasında Suriya böhranına münasibətdə ifadə olunan ortaq mövqe, Azərbaycan–Türkiyə əməkdaşlığının D-8 formatına inteqrasiya ilə genişlənməsi, Bakı–Tbilisi–Qars dəmir yolu və TANAP kimi strateji layihələrin inkişafı ikitərəfli münasibətlərin praqmatik xarakterini təsdiqləyir. Bu kontekstdə daha bir strateji layihə – İğdır–Naxçıvan qaz kəməri – iki ölkənin tərəfdaşlıq gündəminin mühüm mərhələsini təşkil edir. Kəmərin tikintisinə dair Anlaşma Memorandumu 2020-ci il 15 dekabr tarixində Ankarada imzalanmışdır (Prezident.az, 2023).

Prezident İlham Əliyevin 10 fevral 2022-ci il tarixli sərəncamı ilə layihənin maliyyələşdirilməsi təmin edilmiş və qaz kəməri qısa müddətdə istifadəyə hazır vəziyyətə gətirilmişdir. Layihənin icrası Azərbaycan–Türkiyə əməkdaşlığının daha da dərinləşməsinə, eyni zamanda yeni iqtisadi və energetik istiqamətlərin açılmasına şərait yaradır (Trend.az, 2025). Birincisi, güclənən qardaşlıq bağları və strateji müttəfiqlik qarşıda duran bir çox regional məsələlərin daha səmərəli həllinə imkan verəcəkdir. İkincisi, Azərbaycan və Türkiyə arasında artan iqtisadi-siyasi təmaslar Türk dünyasının birliyi və inkişafında müstəsna rol oynayacaqdır. Üçüncüsü, İğdır–Naxçıvan qaz kəməri Naxçıvan Muxtar Respublikasının təbii qaz təminatını ən azı 30 il ərzində tam qarşılayaraq onun bir mənbədən asılılığını aradan qaldıracaqdır.

Prezident İlham Əliyev çıxışında qeyd etmişdir: *"Birinci Qarabağ savaşı başlayan kimi Ermənistan Qarabağı işğal etdi və eyni zamanda Naxçıvanı blokadaya aldı… O zaman Naxçıvanı Türkiyə ilə birləşdirən 'Ümid' körpüsü inşa edilmişdir və Türkiyədən gələn yardımlar Naxçıvanın qorunmasına çox önəmli töhfə vermişdir"* (Prezident.az, 2025).

İğdır–Naxçıvan qaz kəmərinin açılışı zamanı həm İlham Əliyev, həm də Rəcəb Tayyib Erdoğan Türkiyə, Türk dünyası və beynəlxalq münasibətlər sistemi üçün strateji mesajlar vermişdir. Prezident Əliyevin Ümid Körpüsünü xatırlatması təsadüfi deyildi. Bu xatırlatma 1990-cı illərin əvvəllərində Naxçıvanın ağır blokada şəraitində üzləşdiyi humanitar fəlakətin yenidən gündəmə gətirilməsi və həmin dövrdə Türkiyənin göstərdiyi dəstəyin tarixi əhəmiyyətinin vurğulanması idi. Həmin çətin illər Ulu Öndər Heydər Əliyevin xatirələrində belə təsvir olunur:

*"İnsanlar ağır vəziyyətdə yaşayırdı… Naxçıvanın qışı çox şaxtalıdır… Uşaq evdə donub, ana donmuş uşağı gətirib doğum evinin baş həkiminin üstünə atıb ki, götürün. Dəhşətli faciədir!"* (Azərbaycan Prezidenti Heydər Əliyev Naxçıvanda, 1996–2002).

1990-cı il 22 iyul tarixində Naxçıvana qayıdan Heydər Əliyev bölgəni faktiki işğaldan xilas etmiş və Ümid Körpüsünün inşası ilə muxtar respublikanın blokadadan qismən çıxmasına nail olmuşdur. Ümid Körpüsünün açılışı xalq tərəfindən böyük sevinc hissi ilə qarşılanmışdır.

Ulu Öndər Heydər Əliyev çıxışında belə demişdir: *"Naxçıvan ilə, Azərbaycan ilə Türkiyəni bağlayan nəhəng bir körpü tikilibdir… Mən sizi bu hadisə münasibətilə ürəkdən təbrik edirəm"*. Türkiyə Prezidenti Süleyman Dəmirəl isə körpünü belə dəyərləndirmişdir: *"Bu körpü, sadəcə, Türkiyə ilə Azərbaycanı deyil, Avropanı Qafqazlara bağlayacaqdır"* (Əhmədov, 2023).

Ulu Öndər daha sonra Ümid Körpüsünü özünün ən böyük arzularından biri kimi dəyərləndirmişdir: *"Bu fikir mənim qəlbimdə on illərlə yaşayırdı… Mən özümü xoşbəxt hesab edirəm ki, bu körpünün yaranmasının təşəbbüskarı oldum"* (Kamal, 2023).

Prezident İlham Əliyevin nitqində Ümid Körpüsünün xatırladılması həmçinin Naxçıvanın Azərbaycanın əsas hissəsindən ayrı düşməsinin səbəblərinə dair tarixi konteksti aydınlaşdırmaq məqsədi daşıyırdı. Bu səbəb sovet hakimiyyəti dövründə Qərbi Zəngəzurun Ermənistana verilməsi və Azərbaycanla Naxçıvan arasında quru əlaqəsinin kəsilməsi idi (Məmmədov, 2025). Prezident Əliyevin sözləri ilə: *"Zəngəzurun Ermənistana birləşdirilməsi türk dünyasının coğrafi parçalanması idi… Lakin bu gün Zəngəzur türk dünyasının birləşməsi rolunu oynayacaq"* (Şahtaxtı, 2021).

Zəngəzur dəhlizi məsələsi tarixi boyunca siyasi manipulyasiyalara məruz qalmışdır. 1941-ci ildə çəkilmiş Culfa–Mincivan dəmir yolu xəttinin 42 kilometrlik hissəsinin 1980-ci illərdə Ermənistan tərəfindən tamamilə dağıdılması Naxçıvanın blokadaya alınmasının daha bir acı nümunəsidir (Fərəcov, 2025).

Bu gün isə Azərbaycan və Türkiyənin siyasi, iqtisadi və hərbi gücü fonunda bunlar geridə qalmış tarixdir. İğdır–Naxçıvan qaz kəmərinin açılış mərasimi fonunda regional mənzərə yenidən qiymətləndirilərkən Azərbaycanın haradan hara gəldiyi, dövlətin imkanlarının necə gücləndiyi aydın görünməkdədir. Bu gün baş verənlər Azərbaycan–Türkiyə qardaşlığının tarixin bütün sınaqlarından uğurla keçdiyini təsdiq edir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Erdoğan İğdır–Naxçıvan qaz kəmərini belə dəyərləndirmişdir: *"Bu kəmər Naxçıvanın təbii qaz ehtiyacının hamısını ən azı 30 il təmin edəcək və enerji təhlükəsizliyinə mühüm töhfə verəcək… Bu həm də ortaq taleyimizin bir nişanəsidir"* (Prezident.az, 2025).

İğdır–Naxçıvan qaz boru kəməri mövcud regional enerji layihələrinə dəstəkləyici təsir göstərərək Bakı–Tbilisi–Ceyhan, TANAP və Bakı–Tbilisi–Ərzurum kəmərləri ilə inteqrasiya vasitəsilə Avropa və Asiya arasında enerji təchizatının şaxələndirilməsini və təhlükəsizliyinin gücləndirilməsini təmin edir. Layihə eyni zamanda regionda yeni iş yerlərinin yaradılmasına, mühəndislik və tikinti sahələrində təcrübənin artırılmasına və ümumilikdə regional iqtisadi inkişafın sürətlənməsinə şərait yaradır.

**Azərbaycan və Türkiyə Avrasiyanın enerji xəritəsini dəyişdilər**

Regional səviyyədə İğdır–Naxçıvan qaz boru kəməri layihəsi Naxçıvanın qaz təchizatını şaxələndirməklə yanaşı, həm Naxçıvan, həm də İğdır əhalisinin rifahına xidmət edir. Bu səbəbdən layihə haqlı olaraq Azərbaycan–Türkiyə dostluq və qardaşlığının daha bir simvolu kimi qiymətləndirilir.

Statistik göstəricilərə nəzər saldıqda:

*Boru kəmərinin İğdırdan Sədərək rayonuna qədər uzunluğu 97,5 km təşkil edir;

*Bunun 17,5 km-i Azərbaycanın, 80 km-i isə Türkiyənin ərazisindən keçir;

*Kəmər gündə 2 milyon $m^3$, ildə 730 milyon $m^3$ qaz ötürmək gücünə malikdir.

Kəmər Naxçıvan Muxtar Respublikasının enerji təhlükəsizliyinin təmin edilməsi baxımından xüsusi əhəmiyyət daşımaqla yanaşı, yaxın perspektivdə əks istiqamətdə də enerji tədarükünün həyata keçirilməsinə imkan yaradacaq və bu da iki qardaş ölkə üçün yüksək dividendlər təmin edəcək. Bununla belə, qeyd edilməlidir ki, Azərbaycan və Türkiyə bundan əvvəl də strateji xarakterli bir sıra enerji layihələrində birgə iştirak etmişdir. Liderlərin çıxışları bunu aydın şəkildə təsdiq edir.

Prezident İlham Əliyev bildirir:

*“Bu gün Türkiyə və Azərbaycan – iki qardaş ölkə nəhəng layihələr reallaşdırır. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, TANAP kimi neft–qaz boru xətləri layihələri nəinki ölkələrimizi birləşdirdi, eyni zamanda, Avrasiyanın enerji xəritəsini dəyişdirdi… Bu gün açılışında iştirak etdiyimiz layihə Naxçıvanın enerji təhlükəsizliyini təmin edəcək.”* (Prezident.az, 2025).

Türkiyə Prezidenti Rəcəb Tayyib Erdoğan isə belə qeyd edir: *“Ölkələrimiz arasındakı münasibətlər müdafiədən ticarətə qədər geniş sahədə daim inkişaf edir… TANAP vasitəsilə böyük miqdarda Azərbaycan qazının Avropaya çatdırılmasının sevincini yaşayırıq.”* (İbrahimov, 2025).

Ən vacib məqamlardan biri odur ki, birgə enerji layihələri hər hansı ölkəyə qarşı yönəldilməyib; onların məqsədi sülhə, sabitliyə və xalqların rifahına xidmət etməkdir. Bu layihələr ikitərəfli, regional və qlobal əməkdaşlığa, təhlükəsiz əməkdaşlıq mühitinə və davamlı inkişafa söykənir.

2024-cü ildə Azərbaycan və Türkiyə arasında ticarət dövriyyəsi 6.13 milyard ABŞ dolları təşkil etmişdir:

*İxrac: 3.82 milyard ABŞ dolları,

*İdxal: 2.31 milyard ABŞ dolları.

Azərbaycanın Türkiyə iqtisadiyyatına yatırdığı investisiyaların ümumi həcmi isə 20 milyard ABŞ dollarını keçmişdir (Məmmədov, 2025). Bundan əlavə, Azərbaycan və Türkiyənin bölgə dövlətləri ilə əməkdaşlığı təkcə enerji sektorunu əhatə etmir. Müttəfiq dövlətlər nəqliyyat və kommunikasiya layihələrinə xüsusi əhəmiyyət verirlər. Bu istiqamətdə Bakı–Tbilisi–Qars dəmir yolu xətti mühüm rol oynayır. Prezident İlham Əliyevin vurğuladığı kimi, bu marşrut yalnız iki ölkəni birləşdirmir, həm də bütün türk dünyasına iqtisadi və geosiyasi üstünlüklər qazandırır. Dünyanın nəqliyyat xəritəsində strateji mövqe əldə etməklə türk dövlətlərinin qlobal nüfuzunu artırır.

Prezident İlham Əliyev bunu belə ifadə edir: *"Bakı–Tbilisi–Qars dəmir yolu çox böyük üstünlüklər təmin edir… Xüsusilə türk dünyasını birləşdirmək üçün bu nəqliyyat bağlantısının böyük mənası var… Azərbaycan da hər zaman Türk dünyasının birləşməsinə önəm verib və bu istiqamətdə səylərini əsirgəməyib."* (Prezident.az, 2025)

Bütün bunlarla yanaşı, İğdır–Naxçıvan boru xətti iqtisadi baxımdan yüksək rentabellidir, geniş coğrafiyanı əhatə edir və texniki üstünlükləri ilə seçilir. Naxçıvanın mürəkkəb relyefi nəzərə alınarsa, alternativ qaz marşrutlarının həyata keçirilməsi çətin olduğu üçün məhz İğdır istiqaməti coğrafi və iqtisadi göstəricilər baxımından ən optimal həll olaraq qiymətləndirilir. Layihə Muxtar Respublikanın qaz təchizatını daha etibarlı, fasiləsiz və keyfiyyətli təmin etmək baxımından faktiki olaraq alternativsizdir. Siyasi kontekstdə isə İğdır–Naxçıvan qaz kəməri Naxçıvanın blokadadan çıxarılması üçün atılmış ən mühüm və strateji addımlardan biri kimi dəyərləndirilir. Bu layihə həm də Azərbaycan və Türkiyənin regiondakı tranzit mövqeyinin daha da möhkəmlənməsini təmin edəcək.

Uzun illər blokada şəraitində yaşayan Naxçıvan əhalisinin sosial vəziyyətinə ciddi təsir göstərən çətinliklərə baxmayaraq, Prezident İlham Əliyevin regionların inkişafına dair imzaladığı sənədlər, sərəncamlar və kompleks proqramlar Muxtar Respublikanın sosial-iqtisadi inkişafında mühüm rol oynayır və genişmiqyaslı yenidənqurma proseslərini sürətləndirir. İğdır–Naxçıvan qaz kəmərinin açılışı isə Naxçıvan üçün yeni və daha təminatlı mərhələnin başlanğıcıdır. Naxçıvan bundan sonra Türkiyədən təbii qaz alacaq. Bu, yalnız enerji təminatı deyil, həm də etimadın, təhlükəsizliyin və sosial-iqtisadi inklüziv inkişafın möhkəmlənməsi deməkdir. Bununla yanaşı, Azərbaycanın artan iqtisadi gücü ölkənin bütün regionlarında planlaşdırılmış inkişaf proqramlarının icrasına təkan verir və genişmiqyaslı quruculuq prosesini təmin edir.

## Nəticə

Azərbaycan  və Türkiyə arasında strateji müttəfiqliyin dərinləşməsinin mühüm təzahürlərindən biri olan İğdır-Naxçıvan qaz kəməri layihəsi, regionda enerji təhlükəsizliyi və geosiyasi sabitliyin təminində yeni mərhələ yaratmışdır. Bu layihə yalnız enerji infrastrukturu deyil, eyni zamanda regionun geosiyasi arxitekturasını və iqtisadi dinamikasını dəyişdirmə potensialına malik olmaqla, Azərbaycan və Türkiyənin ortaq strateji maraqlarının real nəticələrə çevrildiyi mühüm platforma funksiyasını yerinə yetirir.

Iğdır-Naxçıvan qaz kəməri layihəsinin əhəmiyyəti sadəcə texniki enerji təminatı məsələsi ilə məhdudlaşmır, əksinə, Cənubi Qafqazda və geniş mənada türk dünyasında yaranan yeni siyasi-iqtisadi reallıqlar fonunda, daha çox geostrateji və geoiqtisadi xarakter daşıyır. Layihənin reallaşdırılması, uzun illər Ermənistan tərəfindən blokadada saxlanılan Naxçıvan Muxtar Respublikasının enerji izolyasiyasının aradan qaldırılmasına və Azərbaycan iqtisadi-siyasi məkanına daha sıx inteqrasiyasına şərait yaratmışdır. Bu aspekt, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin möhkəmləndirilməsi baxımından da xüsusi əhəmiyyət kəsb edir.

Layihənin həyata keçirilməsi, həmçinin post-2020 dövründə, İkinci Qarabağ müharibəsindən sonra bölgədə yaranan yeni geosiyasi reallıqlar çərçivəsində Azərbaycan və Türkiyənin birgə enerji və nəqliyyat diplomatiyasının əsas təməl sütunlarından birinə çevrilmişdir. Layihə, Bakı və Ankaranın regionda liderlik iddialarını gücləndirmək, Ermənistanın geosiyasi manevr imkanlarını məhdudlaşdırmaq və türk dünyasının enerji və logistika inteqrasiyasını sürətləndirmək baxımından mühüm alət kimi çıxış edir.

Digər tərəfdən, layihənin mühüm tərəflərindən biri də Cənubi Qafqazın və daha geniş coğrafiyanın enerji təhlükəsizliyi və nəqliyyat infrastrukturunun şaxələndirilməsi istiqamətində verdiyi töhfədir. İğdır-Naxçıvan qaz kəməri yalnız Naxçıvanın enerji təminatı baxımından dayanıqlılığını gücləndirmir, eyni zamanda regionun ümumi enerji və logistika xəritəsində yeni bir bağlantı xətti yaratmaqla, Azərbaycanın enerji diplomatiyasını Qərb və Şərq bazarları arasında körpüyə çevirir. Bu isə Azərbaycanın regional güc statusunu daha da möhkəmləndirir və ölkənin enerji siyasətini daha çevik və çoxtərəfli platformaya transformasiya edir.

Layihənin siyasi və diplomatik aspektləri də xüsusi vurğulanmalıdır. İğdır-Naxçıvan qaz kəməri layihəsi, Azərbaycan və Türkiyə arasında imzalanan Şuşa Bəyannaməsi və Türk Dövlətləri Təşkilatı çərçivəsində əldə olunan razılaşmalarla sinxron şəkildə həyata keçirilməsi ilə, Türk dünyasında enerji və logistika inteqrasiyasının praktiki reallaşdırılmasının simvoluna çevrilmişdir. Bu amil, Türk Dövlətləri Təşkilatının enerji platformalarının gələcəkdə daha da

inkişaf etdirilməsi və Naxçıvanın bu prosesdə mərkəzi mövqelərdən birinə çevrilməsi ehtimalını gücləndirir.

Təhlillər həmçinin layihənin Azərbaycanın və Türkiyənin yalnız enerji bazarlarında deyil, eyni zamanda regional və qlobal geosiyasi platformalarda diplomatik mövqelərini gücləndirmək üçün strateji imkanlar yaratdığını göstərir. İğdır-Naxçıvan qaz kəməri layihəsi, Bakı və Ankaranın Orta Asiya, Cənubi Qafqaz və Yaxın Şərq regionlarında artan nüfuzlarını daha dayanıqlı və institusional əsaslara söykəndirir, Türk dünyasının iqtisadi və energetika xəritəsində yeni inteqrasiya düyünləri formalaşdırır.

Bununla yanaşı, layihənin Ermənistanın regionda təcrid siyasətinin təsir gücünü zəiflətmək kimi dolaylı, lakin strateji təsirləri də diqqətəlayiqdir. İğdır-Naxçıvan qaz kəməri layihəsi regionun enerji və nəqliyyat logistikası baxımından alternativ və daha təhlükəsiz marşrutlar formalaşdırır, Ermənistanın blokada siyasətinin effektivliyini və davamlılığını sual altına alır. Bu isə Azərbaycanın və Türkiyənin bölgədəki siyasi təşəbbüslərinin və humanitar diplomatiyasının təsir gücünü artırır.

Nəticə etibarilə, İğdır-Naxçıvan qaz kəməri layihəsi Azərbaycan və Türkiyə arasında artan enerji, nəqliyyat və geosiyasi əməkdaşlığın yalnız ikitərəfli münasibətlər səviyyəsində deyil, daha geniş regional və qlobal çərçivədə Türk dünyasının birliyi, sabitliyi və rifahı üçün də vacib bir elementə çevrilmişdir. Layihənin uğurlu reallaşdırılması Azərbaycan və Türkiyənin enerji diplomatiyasının gələcəkdə daha da institusional və çoxtərəfli çərçivədə inkişaf etdirilməsinə, Türk Dövlətləri Təşkilatının enerji və logistika platformalarının daha güclü mexanizmlərlə təchiz edilməsinə və regionda dayanıqlı sülh və rifahın təşviqinə xidmət edəcəkdir.

Bu kontekstdə əminliklə deyə bilərik ki, Azərbaycan və Türkiyə İğdır-Naxçıvan qaz kəməri layihəsinin reallaşdırılması ilə kifayətlənməyərək, Cənubi Qafqaz və Orta Asiya regionlarında enerji və nəqliyyat marşrutlarının şaxələndirilməsi, Naxçıvanın logistik və enerji mərkəzinə çevrilməsi, türk dünyasında enerji inteqrasiyasını dərinləşdirən yeni təşəbbüslərin inkişaf etdirilməsi istiqamətində konkret proqramların həyata keçirilməsində hələ böyük layihələr reallaşdıracaq. Eyni zamanda, regionda Ermənistanla bağlı yaranan yeni reallıqlar nəzərə alınaraq, sülh və əməkdaşlıq təşəbbüslərinin təşviqində İğdır-Naxçıvan qaz kəməri layihəsinin rolu və imkanları maksimum dərəcədə diplomatik və iqtisadi alətə çevriləcəkdir.

## References

Azərbaycan Prezidenti Heydər Əliyev Naxçıvanda (1996–2002). (n.d.). https://files.preslib.az/projects/nax/helnax.pdf

Aydın, M. (2014). *Türk dış politikası: Soğuk Savaş sonrası dönem (1990–2012).* İletişim Yayınları.

Əhmədov, N. (2023, June 13). Heydər Əliyev – Süleyman Dəmirəl dostluğunun Naxçıvan dövrü. *Xalq Qəzeti.* https://xalqqazeti.az/az/siyaset/130447-heyder-eliyev-suleyman-demirel-dostlugunun-naxcivan-dovr

Əliyev, H. (2004). *Müstəqillik yolu.* Azərnəşr.

Fərəcov, Ş. (2025, May 3). Zəngəzur dəhlizi: Tarix yaşadan yol. *Respublika News.* https://www.respublika-news.az/az/news/zengezur-dehlizi-tarix-yasadan-yol

İbrahimov, E. (2025, March 6). İğdır–Naxçıvan qaz kəməri Azərbaycan–Türkiyə qardaşlığını daha da möhkəmləndirəcək. *Səs Qəzeti.* https://sesqazeti.az/news/politics/1236266.html

Kamal, M. (2023, May 28). Bir millət, iki dövlətin ümid körpüsü. *Respublika News.* https://respublika-news.az/az/news/bir-millet-iki-dovletin-umid-korpusu

Kassianova, A. (2021). *Energy security in the South Caucasus: New strategies and challenges.* Routledge.

Kurt, M. (2020). *Azerbaycan–Türkiye enerji ilişkilerinde stratejik ortaklık və Naxçıvan'ın önemi.* Nobel Yayınları.

Məmmədov, R. (2025, March 9). *Həftə verilişi* [Video]. YouTube. https://www.youtube.com/live/4QkdaQllJDI?si=JbWpl0TL85IFwmwA

Mustafayev, İ. (2020). *Azərbaycanın enerji təhlükəsizliyi və regional əməkdaşlıq.* Elm və Təhsil.

Prezident.az. (2023, September 25). İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan İğdır–Naxçıvan qaz kəmərinin təməlinin qoyulması mərasimində iştirak ediblər. https://president.az/az/articles/view/61245

Prezident.az. (2025, March 5). Azərbaycan və Türkiyə prezidentləri İğdır–Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılış mərasimində iştirak ediblər. https://president.az/az/articles/view/68281

Şahtaxtı, S. (2021, April 1). Prezident İlham Əliyevin Türk Şurasının Zirvə görüşündəki çıxışı Türkiyə mediasında geniş işıqlandırılıb. *AZERTAC.* https://azertag.az/xeber/prezident_ilham_eliyevin_turk_surasinin_zirve_gorusundeki_chixisi_tur

Trend.az. (2025, March 2). İğdır–Naxçıvan təbii qaz kəmərinin istifadəyə veriləcəyi tarix məlum oldu. https://az.trend.az/business/4012345.html

Zeynalova, A. (2022). Şuşa zirvesi odağında Azerbaycan–Türkiye ittifakı və uluslararası etkisi. *Uluslararası Yönetim Akademisi Dergisi, 5*(1), 1–15. https://doi.org/10.33712/mana.1097358

Zeynalova, A. (2024). XXI əsr Türk dünyasının inkişafı əsri olmalıdır. *History of Science, 5*(3), 35–47. https://doi.org/10.33864/2790-0037.2024.v5.i3.35-47

***Telif ve Lisans Bildirimi***

***Bu makalenin tüm yayın ve telif hakları Journal of Academic History and Ideas / Akademik Tarih ve Düşünce Dergisi'ne aittir. Makale, dergi tarafından Creative Commons Atıf-GayriTicari 4.0 Uluslararası Lisansı (CC BY-NC 4.0) kapsamında açık erişimli olarak sunulmaktadır (https://creativecommons.org/licenses/by-nc-nd/4.0/). Bu lisans kapsamında, makale uygun bilimsel atıf yapılması koşuluyla ve yalnızca ticari olmayan amaçlarla her türlü ortamda kullanılabilir, çoğaltılabilir ve paylaşılabilir; ancak orijinal içeriğin değiştirilmesi, dönüştürülmesi veya üzerinde türev eser üretilmesi kesinlikle yasaktır. Dergide yayımlanan çalışmaların bilimsel, hukuki ve etik sorumluluğu tamamen makale yazar(lar)ına aittir; dergi editörleri ve yayın kurulu bu içerik nedeniyle sorumlu tutulamaz. Makalenin ticari yeniden kullanımı, çeviri veya yeniden yayımlanmasına ilişkin tüm talepler, derginin editör kuruluna akademiktarihvedusunce@gmail.com adresi üzerinden iletilmelidir.***